www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Mədəniyyət Nazirliyi yeni strategiya hazırlayır




Yanvarın 14-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin 2022-ci il üçün nəzərdə tutulmuş layihələrin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev jurnalistlərə nazirlik daxilində aparılan islahatla bağlı məlumat verib. Bildirib ki, nazirlik layihələrin qəbul olunmasında və icrasında yeni yanaşmalar tətbiq etməyə başlayıb: "Bu gündən etibarən Mədəniyyət Nazirliyinin daxilində aparılan islahatların yeni mərhələsi başlayır. Layihəyönümlü islahatın məqsədi idarəçiliyin təkmilləşdirilməsinə yönəlib. İstəyirik, yeni strategiyamız çox effektiv bir alət kimi Azərbaycan cəmiyyətində dəyər carçısına çevrilsin, Nazirliyin tabeliyində olan qurumlar Azərbaycanın tarixindən, ədəbi irsindən gələn dəyərləri yaşatdırsın və gələcək nəsillə ötürsün".

E.Əliyev deyib ki, Nazirlik bütün fəaliyyətini layihə idarəçilik vasitəsilə həyata keçirəcək. Layihə artıq təsbit olunmuş elmi yanaşmadır, bütün dünyada ən çox istifadə olunan bir metodologiyadır: "Mədəniyyət Nazirliyi tərəfindən yeni strategiya hazırlanır. Artıq strategiyanın beş istiqaməti qəbul edilib. Layihəyönümlü yanaşma bu strategiyanın həyata keçirilməsində, eyni zamanda hər bir layihənin bu strategiyaya uyğunluğunu təmin etmək üçün vacib addımdır. Layihə yanaşması bütün dünyada tətbiq olunur. Biz dünyada tətbiq olunan və özünü təsdiqləmiş korporativ idarəçiliyi Mədəniyyət Nazirliyində tətbiq etməyə çalışırıq. Ancaq Mədəniyyət Nazirliyi olaraq biz bu idarəçilik metodunu müəyyən qədər dəyişib ölkəmizə uyğun formada işləyib hazırlamışıq".

O bildirib ki, QHT-lərlə əməkdaşlığı layihəyönümlü etmək istəyirlər və Mədəniyyət Nazirliyində layihələrin hazırlanmasında QHT-lərlə əməkdaşlıq proseduru üzərində iş gedir: "Layihəyönümlülüyün vacib mərhələsi layihə sənədidir. Artıq hər bir təklif, hər bir təşəbbüs layihə sənədi əsasında formalaşdırılacaq və bu layihə sənədi bütün tərəflərlə müzakirə ediləcək. Bizim bu gün tətbiq etdiyimiz proses və prosedur nazirlikdaxili layihələrə aiddir. Eyni zamanda bizim paralel olaraq QHT-lərlə əməkdaşlığımız da layihə idarəçiliyi çərçivəsində görülür. Bu istiqamətdə də hazırlıq aparılır və yaxın zamanlarda o prosedur da hazır olacaq. Bu gün biz çalışırıq ki, Mədəniyyət Nazirliyi idarəçiliyin təkmilləşdirilməsi ilə məşğul olsun. İdarəçiliyin ilk mərhələsi təbii ki, daxili idarəçilikdir. Bu gündən etibarən isə layihəyönümlüyə keçiririk. Bütün tərəfdaşlarla əməkdaşlığımızı o cümlədən, QHT-lərlə əməkdaşlığı layihəyönümlü etmək istəyirik. Bunun ən böyük üstünlüyü şəffaflıqdır. Çünki artıq hər bir qərarı qəbul etməzdən öncə bütün cəlb olunan və o fəaliyyətdə iştirak edən bütün tərəflər o layihədən xəbərdardır. Bu ümumi koordinasiyanı gücləndirəcək, eyni zamanda şəffaflıq yaradacaq.

Korporativ dünyadan fərqli olaraq Mədəniyyət Nazirliyinin qarşısında müəyyən öhdəliklər var. Korporativ dünya layihələrini maliyyə baxımından dəyərləndirirsə, bizim dəyərləndirmə sistemimiz başqadır. Çünki cəmiyyət qarşısında öhdəliklərimiz var. Bu öhdəlik mədəniyyət dəyərlərimizin tətbiqi və təşviq edilməsidir ki, bu da bizim sənədlərimizdə əks olunub. Bundan sonra layihələrin hazırlanması bizim illik fəaliyyət planına uyğun olacaq".